**Prezident İlham Əliyevin həyata keçirdiyi islahat konsepsiyası və onun uğurları ölkə ictimaiyyəti tərəfindən ciddi müzakirə olunur, insanlar bu islahatlara dəstək ifadə edirlər. Belə ki, hazırda Prezident Administrasiyası, Nazirlər Kabineti, idarəetmə orqanları, ümumiyyətlə, dövlət həyatının bütün sahələrində həyata keçirilən islahatlar cəmiyyət tərəfindən rəğbətlə qarşılanır.**

Qarşıya çıxan yeni çağırışlar, cəmiyyətin gözləntiləri və digər amillər qanunvericilik fəaliyyətində də islahatların dərinləşməsi, parlamentin yeniləşməsini zərurətə çevirib. Məhz bu zərurətdən irəli gələrək, Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının ötən həftə iclası keçirilib. Siyasi Şura üzvləri bu qənaətə gəliblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar qanunverici hakimiyyət sferasından kənarda qalmamalıdır. Ona görə də YAP Siyasi Şurasının iclasında partiyanı təmsil edən deputatlara Milli Məclisin buraxılması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevə müraciət etmək tövsiyə olunub. Həmin tövsiyəyə uyğun olaraq, dekabrın 2-də Milli Məclis YAP-ın parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı müraciətini müzakirə edib. Müzakirələrdən sonra Milli Məclis parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin olunması haqqında Azərbaycan Prezidentinə müraciət qəbul edib.

# Parlament islahatları cəmiyyətin sosial sifarişidir

## Yeniləşən Azərbaycana yeni qanunverici orqan lazımdır







Mövzu ilə bağlı "Kaspi" qəzetinə açıqlama verən **millət vəkili, politoloq Elman Nəsirov** bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə sistemli, ardıcıl islahatlar kursu həyata keçirilir. Onun sözlərinə görə, Azərbaycanda elə bir sfera yoxdur ki, islahatlar oranı əhatə etməsin. Sosial, iqtisadi, məhkəmə-hüquq sistemində və digər sahələrdə islahatlara start verildiyini diqqətə çatdıran deputat qeyd edib ki, xalq bu islahatların bəhrəsini artıq gündəlik həyatında hiss edir: "Göründüyü kimi, hakimiyyətin hər iki qanadında islahatlar aparılıb. Ölkəmizin sürətli inkişafının təmin olunması üçün islahatların bütün sahələr üzrə aparılması vacibdir. Təbii ki, qanunverici orqan olan Milli Məclisdə də yeniləşmə olmalıdır. Bu baxımdan, Milli Məclisin buraxılması barədə Yeni Azərbaycan Partiyası Siyasi Şurası tərəfindən təşəbbüsün irəli sürülməsi məntiqidir və ölkəmizdə aparılan islahatlar kursunun mahiyyətindən, onun fəlsəfəsindən doğan bir zərurətdir. İslahatlar barəsində də cənab Prezidentin çox maraqlı fikirləri var. Deyir ki, islahat, ilk növbədə, təkamüldür, yeni dövrə uyğunlaşma və tərəqqidir. Eyni məntiqlə Milli Məclis də təkmilləşmə kursuna, yeni şəraitə, tərəqqiyə uyğun olaraq bu addımları atır. Hesab edirəm ki, bununla da islahatlar artıq cəmiyyətimizin bütün sferalarını, o cümlədən parlamenti də əhatə etməklə tam məzmun kəsb edir. Digər tərəfdən, Yeni Azərbaycan Partiyasının Siyasi Şurası növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış edərək yeni siyasi mədəniyyət nümayiş etdirir və müstəqillik tariximizə yeni səhifə yazır. Yeni Azərbaycan Partiyasının parlamentdə təmsil olunan deputatları könüllü şəkildə öz səlahiyyətlərindən imtina edir və yeni seçkilərin keçirilməsi istəyini ortaya qoyurlar. Hesab edirəm ki, yeniləşən Azərbaycana yeni parlament nəsib olacaq".

**Millət vəkili, politoloq Hikmət Babaoğlu** bildirib ki, bu gün Azərbaycanın ən yeni siyasi və parlamentarizm tarixində mühüm hadisə baş verib. Onun fikrincə, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar ölkəmizin inkişafının daha da dərinləşdirilməsi üçün yeni şərait formalaşdırır. Deputat vurğulayıb ki, bu şərtlər içərisində Azərbaycan cəmiyyətinin bütün sahələrində islahatlar davam edir, sözügedən islahatlar ali qanunverici orqanı da əhatə etməlidir: "Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi sisteminin sütunudur. Ölkə başçısı İlham Əliyevin BDU-nun 100 illik yubileyində çıxışı zamanı xatırlatdığı kimi partiyamız yaranana qədər Azərbaycanda tam mənada siyasi sistem yox idi. Siyasi sistemə daxil olduğu gündən YAP Azərbaycan cəmiyyətinə siyasi mədəniyyət, əxlaq və davranış təqdim etməyi bacarıb. Bu gün öz tarixi ənənələrinə sadiq olaraq YAP yeni bir siyasi mədəniyyət nümunəsi təqdim edir. Partiyamızın Siyasi Şurası tövsiyə edir ki, Prezident İlham Əliyevin islahat kursuna uyğun olaraq, Parlamentdə də islahatlar həyata keçirilsin. Əgər inkişafımızın indiki mərhələsində qlobal və regional, milli inkişaf çağırışları ilə uzlaşan qərarlar qəbul edə bilməsək, bundan sonrakı mərhələni təmin edə bilmərik".

H.Babaoğlu qeyd edib ki, "Davos" İqtisadi Forumunun hesabatlarına görə, Azərbaycan islahatlara və rəhbərə inam əmsalına görə dünyada ilk onluqda yerləşir: "Partiyanın Siyasi Şurasının tövsiyəsi ilə parlament yenidən xalqa doğru qayıdır, onun inamını əldə etmək şansını qazanmaqla növbəti tarixi mərhələdə yeni keyfiyyət mərhələsinə qədəm qoymağı bacaracaq. Partiyanın 1999-cu ildə keçirilən qurultayında cənab İlham Əliyevin YAP sədrinin müavini, 2013-cü ildə keçirilən qurultayda Mehriban xanım Əliyevanın sədr müavini seçilməsi, partiyamızın inkişafında yeni keyfiyyət dəyişiklikləri yaratdı. Bu gün YAP Azərbaycan cəmiyyətinə, siyasi sisteminə daha bir yenilik gətirir. Partiyanın Siyasi Şurasının məlum qərarı milli inkişaf çağırışları ilə uzlaşır. Bu qərarın nümunəvi tarixi qərar olacağını düşünürəm".

**Millət vəkili Nəsib Məhəməliyev** hesab edir ki, son dövrlərdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar hakimiyyətin digər qollarında olduğu kimi, qanunverici orqan olan parlamentdə də dəyişikliklərin aparılmasını zəruri edib. Deputat qeyd edib ki, Bakı Dövlət Universitetinin 100 illik yubileyi ilə bağlı keçirilən tədbirdə Prezident dövlətin və xalqın qarşısında duran problemlər, müasir qlobal çağırışlar, islahatların daha da genişləndirilməsi zərurəti barədə proqram xarakterli çıxış edib: "Təbii ki, bu tapşırıqların icrasını təmin etmək üçün müasir tələblərə cavab verən gənc nəslin dövlət idarəetmə sisteminə, qanunvericilik proseslərinə cəlb olunması zamanın tələbidir. Deməli olar ki, aparılan parlament islahatları cəmiyyətin sosial sifarişidir".

**Alpər TURAN**